# BAKI DÖVLƏT UNİVERSİTETİ

**2022-ci ildə Sosial iş**
**kafedrasında (şöbəsində, ETİ, ETM, ETL-də) elmi plan üzrə yerinə yetirilmiş elmi-tədqiqat işlərinin nəticələrinin**

# HESABATI

**Mövzunun adı:** Azərbaycanda sosial xidmətin təşəkkül tarixi və müasir vəziyyəti

**Mövzu rəhbərinin soyadı, adı və atasının adı:** Şəfiyev Üzeyir Atamalı oğlu

**Mövzunun icra müddəti (başlama və bitmə tarixi):** 01 yanvar 2022-ci il - 31 dekabr 2022-ci il

**B a k ı - 2022**

## Mövzu üzrə icraçılar haqqında məlumat (icraçılar, birinci mövzu rəhbər yazılmaqla):

| S/S | Soyadı, adı, atasının adı | Təvəllüdü | Vəzifəsi | Ştat vahidi | Elmi adı və elmi dərəcəsi dərəcəsi | Ştat vahidləri üçün ikinci iş yeri, yarımştatlar üçün əsas iş yeri |
|---|---|---|---|---|---|---|
| 1. | Şəfiyev Üzeyir Atamalı oğlu | 1972 | Kafedra müdiri | 1 | Dosent, s.ü.f.d. | |
| 2. | Abbasova Qızılgül Yasin qızı | 1949 | Müəllim | 0,5 | Professor, f.e.d. | |
| 3. | Məmmədova Rəna Oktaedr qızı | 1973 | Müəllim | 1 | Dosent, f.ü.f.d. | |
| 4. | İsmayılova Elizə Sahadulla qızı | 1970 | Baş müəllim | 0,5 | f.ü.f.d. | |
| 5. | Buqadinova Ramina Abusalat qızı | 1985 | Müəllim | 0,5 | | |
| 6. | Tağıyeva Tərlan Mirzəkərim qızı | 1985 | Müəllim | 0,5 | | |
| 7. | İsgəndərova Aysel İbrahim qızı | 1990 | Müəllim | 0,5 | | |

## Mövzu və mövzu üzrə cari ildə yerinə yetirilmiş elmi işlər

*Plan üzrə hər bir mövzunun, hər bir elmi tədqiqat işinin aktuallığı,məqsədi və alınmış elmi nəticələr ayrılıqda göstərilməli, ad soyad tam yazılmalıdır.*

Mövzunun adı: Azərbaycanda sosial xidmətin təşəkkül tarixi və müasir vəziyyəti

Mövzunun aktuallığı və məqsədi: Müasir dövrdə sosial rifah dövləti quruculuğu qlobal miqyasda mühüm aktuallıq kəsb etməkdədir. Bir sıra dövlətlər sosial dövlət quruculuğu yolunu seçmiş və bunun üçün sosial xidmət siyasətini qeyd olunan trendə uyğun, kürəsəl çağırışlara müvafiq hazırlayır. Azərbaycanda da sosial dövlət quruculuğu istiqamətində mühüm addımlar atılmış, dövlət başçısı Prezident İlham Əliyev Azərbaycanı sosial dövlət istiqmətində inkişaf yolunu müəyyənləşdirmişdir. Tədqiqat işində əsas məqsəd Azərbaycanda sosial xidmətin təşəkkül tarixinə tarixi-müqayisəli təhlil işığında baxmaq və müasir dövrdə sosial xidmət siyasətini təhlil edərək müvafiq tövsiyə və təkliflərlə çıxış etməkdir.

Elmi tədqiqat işi 1. Azərbaycanda sosial xidmətin tarixi müqayisəli təhlili

Elmi tədqiqat işi üzrə çalışan əməkdaşlar: s.ü.f.d., dos. Üzeyir Şəfiyev

Azərbaycanda sosial xidmətin təşəkkül tarixi əsasən 20-ci əsrin əvvələrndən başlayır. Belə ki AXC dövründə sosial xidmıt siyasəti formalaşmağa başlamış, bir sıra avropa ölkələri ilə müqayisədə xeyli inkişaf etmişdir. Sonradan Azərbaycan SSRİ tərkibinə olduğu müddətdə sosial xidmət siyasəti ittifaq qanunları ilə tənzimlənməyə başladı. Və nəhayət Sovet İttifaqının süqutundan sonra müstəqil Azərbaycan dövləti yarandı və Azərbaycan öz sosial xidmət siyasətini beynəlxalq konvensiyalara uyğunlaşdırdı və beynəlxalq çağırışlara cavab verən sosial xidmət siyasəti formalaşdırmağa başladı.

Aktuallığı: Müasir dövrdə bir sıra qabaqcıl ölkələrdə sosial dövlət quruculuğu getdiyi kimi Azərbaycanda da bu proses getməkdədir. Belə bir şəraitdə sosial xidmət siyasətinin sosial dövlət fəlsəfəsinə adekvat şəkildə formalaşdırmaq üçün elmi ictimaiyyət bu istiqamətdə mübət uğur hekayələri olan ölkələrin təcrübələrini öyrənməli, onları optimal təklif şəklində təqdim etməlidir.Bunun üçün sosial xidmət tarixinin dünəni və bu günün elmi tədqiqat obyektinə çevrilməsi xüsusi aktuallıq təşkil edir.

Məqsədi: İşdə əsas məqsəd ən qabaqcıl təcrübəni öyrənmək, eləcə də ölkəmizin sosial xidmət tarixini araşdırmaq, müsbət ənənələrin varisliyini təmin etmək məqsədilə zamanın çağırışına cavab verən innovativ təklif və tövsiyələrlə çıxış etməkdir.

Alınmış nəticələr: Tədqiqat nəticəsində məlum oldu ki, Azərbaycanda sosial xidmət tarixi cümhuriyyət dövründə xeyli inkişaf etmiş və həmin dövrdə hətta bəzi avropa ölkələrində olmayan sosial xidmət siyəsəti həyata keçirilmişdir. Sosial sferaya aid 10-dan yuxarı qanun qəbul olunmuşdur ki, bu da cümhuriyyətin qısa fəaliyyət dövrü üçübn böyük rəqəmdir.Eyni zamanda cümhuriyyətin tarixi və hüquqi varisi olan müasir Azərbayacanda sosial xidmət siyasəti yüksək inkişaf tempinə malik olub, sosial dövlət quruculuğu fəlsəfəsinə tam adekvatdır. Bu özünü dövlərt büdcəsinin sosial yönümlülüyündə, eyni zamanda qəbul olunmuş və həyata keçiril\n sosial proqram və layihələrin icrasında özünü göstərir.

Elmi tədqiqat işi 2. XIX əsrin sonu-XX əsrin 20 illərdə sosial xidmətin təşkili xüsusiyyətləri

Elmi tədqiqat işi üzrə çalışan əməkdaşlar: f.e.d., prof. Qızılgül Abbasova

Adı çəkilən mərhələdə sosial xidmətin reallaşması istiqamətləri təyin edilməli idi. Bunun üçün arxiv materialları, hüquqi aktlar və sosial hadisələr nəzərdən keçirilməli, elmi araşdırmalar təhlil edilməli idi.

Aktuallığı: Göstərilən dövrdə müəyyən işlər görülmüşdür. Azərbaycan İnqilabi Komitəsinin 9 iyun 1920-ci il tarixli 35 saylı fərmanı ilə xəstəlik halında icbari sosial sığorta tətbiq olundu. Bütün fəhlə və qulluqçular sığortaya tabe idi. İşəgötürən işçinin qazancının 10%-ni Xalq Əmək Komissarlığının Sosial təminat şöbəsinə köçürürdü. Xəstəlik halında şöbə müalicə xərclərini ödəyirdi. 1920-ci il iyulun 19-da işsizlik müavinəti haqqında dekret qəbul edildi. Müəssisənin bağlanması, işçilərin ixtisarı, xəstəliyə görə işdən çıxarılması münasibətilə müavinətlərin ödənilməsini nəzərdə tutur. Müavinət almaq üçün əmək birjasında qeydiyyat tələb olunurdu. Azərbaycan Sosial Müdafiə Fondu yaradılıb. Beləliklə, görülən işlər bu sahədə müəyyən dinamikanı izləməyə imkan verir. Tarixi inkişaf xüsusiyyətlərini təyin etmək üçün göstərilən dövrdə sosial xidmətin fəaliyyət xüsusiyyətlərini təhlil etmək mümkündür.

Məqsədi: Azərbaycanda XIX əsrin sonu-XX əsrin 20 illərdə sosial xidmətin fəaliyyət xüsusiyyətlərinin təyin edilməsi.

Alınmış nəticələr: XIX əsrin ikinci yarısında təhsil, səhiyyə, poliqrafiya və elm sahələri müxtəlif sürətlə inkişaf edirdi. Bu dövrdə əsas təhsil mərkəzləri məktəb və mədrəsələr idi. Bu dövrdə onların sayı təxminən 500-700 idi və burada öz ana dilində təhsil alırdılar. Eyni zamanda, şəbəkəsi genişlənən rus məktəbləri açıldı. Mədrəsədə tələbələr 6 ildən 15 ilə qədər təhsil alırdılar. Bəzi məktəblərdə rus dili də tədris olunurdu. Böyük şəhərlərdə texnikumlar, liseylər açıldı. Bütün bunlar əhalinin təhsil səviyyəsinin yüksəlməsinə şərait yaratdı. Qadın məktəbləri, ilk kütləvi kitabxanalar və qiraətxanalar açıldı. Eyni zamanda, bu dövrdə səhiyyənin səviyyəsi kifayət qədər aşağı idi. Həkimlər əsasən şəhərlərdə cəmləşmişdi, ilk apteklər açılmışdı, cəmi 10-a yaxın idi.Ümumiyyətlə sanitar-tibbi vəziyyət kifayət qədər ağır idi. İşçi kütlənin vəziyyəti ağır idi. Onlar aşağı əmək haqqı alırdılar, eyni zamanda ixtisaslı işçilərin maaşı daha yüksək idi. Əməyin mühafizəsi ümumiyyətlə təşkil olunmayıb. Məhz buna görə də fəhlə və həmkarlar hərəkatı genişlənir, həyatın yaxşılaşdırılması üçün fəal siyasi proseslər gedirdi. XX əsrin əvvəllərində fəhlə və kəndlilərin xalq qarşısında çıxışları, milli ziyalı təbəqəsinin formalaşması sayəsində ictimai-siyasi vəziyyət dəyişməyə başladı. Əhalinin sosial müdafiəsi məsələləri daha yaxşı həll olunmağa başladı. Xeyriyyəçilik geniş xarakter aldı. Bundan əlavə, müəssisələrdə əmək şəraitinin yaxşılaşdırılması istiqamətində tədbirlər həyata keçirilib. Daha sonra texniki vasitələrin istifadəsi genişlənirdi ki, bu da fəhlə və qulluqçuların vəziyyətinə müsbət təsir göstərirdi.

Elmi tədqiqat işi 3. Azərbaycanda sağlamlıq imkanları məhdud olan insanlara yardım sisteminin bərqəqar olması və inkişafı

Elmi tədqiqat işi üzrə çalışan əməkdaşlar: dos. Rəna Məmmədova

Sosial siyasət cəmiyyətin hazırki və perspektivdə olan mənafeləri arasında ziddiyətləri həll etməyə yönəldilmişdir. Sosial siyasətin mühüm xüsusiyyəti ondan ibarətdir ki, o, əsasən dövlət büdcəsi, rifahların bölüşdürülməsi və istehlak mexanizmi ilə təmasda olur. Sosial siyasət dövlətin vergi siyasəti ilə birbaşa əlaqəlidir. Bu siyasət vasitəsilə sosial infrastruktura sərmayə qoyuluşu həyata keçirilir, yəni insan kapitalına sərmayə və sosial transferlərin ödənişi baş verir. Sosial məqsədlərə nail olmağın vasitələri sosial sferada deyil, iqtisadi, elmi, texniki və digər sferalarda olduğundan bu vasitələrin sosial sferadakından fərqli olan daxili inkişaf məntiqi vardır. Sosial siyasət sosial işin müxtəlif formaları vasitəsilə realizə olunur və bu realizənin xüsusi mexanizmləri sosial yardım, sosial təminat, sosial xidmətlər, reabilitasiya və özünəyardımdır. Elmi tədqiqat işimin cari ilə aid olan hissəsi ölkəmizdə sağlamlıq imkanları məhdud olan insanlara yardım sisteminin bərqəqar olması və inkişafı meyllərinin tədqiqinə həsr olunub.

Aktuallığı: Son illər salamlıq imkanları məhdud olan insanların sayı artmağdadır. 44 günlük Vətən müharibəsi, Koronavirus infeksiyasının Pandemiyası əhalinin həm fiziki, həm psixoloji durumuna çox ciddi təsir etdi. Bunun nəticəsində əlilliyi olan insanların sayının artımının müşahidə olunması araşdırılan mövzunun aktuallığını vurğulayır.

Məqsədi: Azərbaycanda sosial siyasətin tərkib hissəsi kimi çıxış edən yardım sisteminin sağlamlıq imkanları məhdud olan insanlara ünvanlanma mexanizminin təhlil edilməsi. Əlilliyi olan insanlara yardım sisteminin mühüm elementlərindən biri - sağlamlıq imkanları məhdud olan insanların yararsız vəziyyətə düşən orqanlarının süni əvəzedicilərlə bərpa olunması, protezləşdirmənin həyata

keçirilməsidir. Bu sahədə görülən işlər haqqında praktiki məlumatın araşdırılması

Alınmış nəticələr: 1. Sağlamlıq imkanları məhdud olan insanlar (əlilliyi olan şəxslər) cəmiyyətin “risk” qrupunu təşkil edirlər. Əlillik təkcə bir insanın və ya cəmiyyətin bir hissəsinin deyil, bütün cəmiyyətin problemidir. Müasir dövrdə əlillər əhalinin ən az müdafiə olunmuş, zəif təbəqələrinə aiddirlər. Onların gəliri orta gəlirdən əhəmiyyətli dərəcədə aşağıdır, tibbi və sosial xidmətə olan tələbatları isə daha yüksəkdir.

2. 1992-ci ildə BMT-nin Baş Assemblyasının xüsusi rezolyusiyasında 3 dekabr tarixində “Beynalxalq Əlillər günü”nün qeyd olunması təsdiqləndi. 2021-ci ildə Beynalxalq Əlillər gününün mövzusu - “Postkovid dövründə hüquqlar uğrunda mübarizə” mövzusu olmuşdur.

3. Əlilliyi olan şəxslərin hüquqları haqqında Azərbaycan Respublikası qanunu AR konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 1-ci bəndinə uyğun olaraq əlilliyi olan şəxslər barədə dövlət siyasətinin əsaslarını, onların şərəf və ləyaqətinin müdafiəsi sahəsində yaranan münasibətləri tənzimləyir. Qanuna görə əlillik anlayışı müxtəlif maneələrlə qarşılaşdığı zaman şəxsin digər şəxslərlə bərabər səviyyədə cəmiyyət həyatında tam və səmərəli iştirakına mane olan sabit pozuntuların olması mənasını ifadə edir. Bu qanuna görə əlilliyi olan şəxs maneələrlə qarşılaşdığı zaman şəxsin digər şəxslərlə bərabər səviyyədə cəmiyyət həyatında tam və səmərəli iştirakına mane olan sabit psixi, əqli, fiziki və ya hissiyyat pozuntuları olan şəxs, o cümlədən sağlamlıq imkanları məhdud 18 yaşadək uşaqlardır. Əlilliyi olan şəxslərin hüquqları haqqında AR 2018-ci il 31 may tarixli 1153-VQ nömrəli qanununun tətbiqi barədə AR prezidentinin fərmanı 18 iyul 2018-ci il tarixində verilib. Əlilliyi olan şəxslərin reabilitasiya vasitələri ilə təmin edilməsi Şərtləri və Qaydası Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 18 dekabr tarixli 501 nömrəli Qərarı ilə təsdiq edilmişdir.

4. Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin Apparatının struktur bölmələrindən biri Əlillik Siyasəti şöbəsidir. Şöbə əlillik və reabilitasiya sahəsində qanunvericiliyin və inzibatçılığın təkmilləşdirilməsinə nəzarət edir.

5.Sağlamlıq imkanları məhdud olan insanların yaşayış şəraitini yaxşılaşdırmağın əsas yollarından biri protezləşdirmədir. Protezləşdirmə insan bədəninin itirilmiş hissələrinin süni əvəzedicilərlə (protezlərlə) bərpası deməkdir. Bakıdakı Xətai rayonunda Protez-Ortopedik Bərpa Mərkəzi əlillərə xidmət göstərir. Müasir texnologiya əsasında protez-ortopedik məhsulların, reabilitasiya məmulatlarının istehsalı, diaqnostika və stasionar müalicəsi ilə məşğul olan müəssisə istehsalat sahəsindən və stasionar şöbədən ibarətdir. Protez-Ortopedik Bərpa Mərkəzi əlilliyi olan şəxslərə protez-ortopedik bərpa xidməti göstərən istehsalat müəssisəsidir. Mərkəz müasir texnologiya əsasında əlilliyi olan şəxslər üçün protez-ortopedik məhsulların (protez, ortez, korset, ortopedik ayaqqabı) və digər reabilitasiya məmulatlarının istehsalı, xəstə və əlillərin xəstəliklərinin diaqnostikası və stasionar müalicəsi istiqamətində fəaliyyət göstərir. Müəssisə istehsalat sahəsindən və stasionar şöbədən ibarətdir. Mərkəzdə əlillər velo və kresloarabalar, qoltuqaltı və dirsəkaltı ağaclar, əsa, eşitmə aparatları və s. ilə təmin edilirlər.

Mərkəz öz fəaliyyətində Azərbaycan Respublikasının qanunlarını, Azərbaycan Respublikası Prezidentinin fərman və sərəncamlarını, digər normativ aktları, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi Kollegiyasının qərarlarını, özünün Əsasnaməsini rəhbər tutur. Ölkəmizdə 2005-ci ildə "Medicom" MMC şirkəti yaradılmışdır. Şirkət dayaq-hərəkət sisteminin xəstəlikləri, zədə və əməliyyatdan sonra nəzərdə tutulmuş müalicəvi və profilaktik məqsədlə istifadə olunan keyfiyyətli ortopedik məhsulları ilə minlərlə əlil insanın aktiv həyat tərzinin bərpasında mühüm rol oynayıb.

Elmi tədqiqat işi 4. Azərbaycanda sosial xidmətdə yeni yanaşmalar: aztəminatlı ailələrə yeni sosial xidmət formalarının tətbiqi

Elmi tədqiqat işi üzrə çalışan əməkdaşlar: f.ü.f.d. Elizə İsmayılova

Əhalinin həyat səviyyəsinin yaxşılaşdırılmasına, sosial cəhətdən həssas əhali qruplarının maraq və mənafelərinə cavab verən sosial iş, müstəqil Azərbaycan Respublikasının dövlət siyasətində prioritet sahələrdən biridir. Cəmiyyətin sosial problemlərinin aradan qaldırılması və ictimai həyatda digər sosial sahələrlə bərabər sosial xidmətlərin beynəlxalq normalara uyğun şəkildə tənzimlənməsi dövrümüzün ən aktual problemlərindən biridir. Sosial-iqtisadi həyatın bütün sahələrində tərəqqi proseslərinin geniş vüsət aldığı ölkəmizdə sosial cəhətdən həssas əhali qruplarının hüquqlarının etibarlı müdafiəsi, onların maddi və mənəvi tələbatlarının ödənilməsi, dolğun həyat şəraitinin təmin edilməsi istiqamətində reallaşdırılan tədbirlərin əhatə dairəsi ilbəil genişlənir. Bu baxımdan ölkəmizdə sosial iş sahəsində yeni xidmət formalarının yaranmasına, daha effektiv nəticələrin alınması məqsədiylə müasir tələbatların ödənilməsinə istiqamətlənən yeni yanaşmalara ehtiyac vardır.

Aktuallığı: Sosial-iqtisadi həyatın bütün sahələrində tərəqqi proseslərinin geniş vüsət aldığı ölkəmizdə sosial cəhətdən həssas əhali qruplarının hüquqlarının etibarlı müdafiəsi, onların maddi və mənəvi tələbatlarının ödənilməsi, dolğun həyat şəraitinin təmin edilməsi istiqamətində reallaşdırılan tədbirlərin əhatə dairəsi ilbəil genişlənir. Bu baxımdan ölkəmizdə sosial iş sahəsində yeni xidmət formalarının yaranmasına, daha effektiv nəticələrin alınması məqsədiylə müasir tələbatların ödənilməsinə istiqamətlənən yeni yanaşmalara ehtiyac vardır.

Məqsədi: Tədqiqatın əsas məqsədi ölkəmizdə sosial işin inkişafınada mühüm sosial funksiyaları əhatə edən bir çox sahələri- hüquqi, iqtisadi-siyasi, ictimai-mənəvi əsaslarını tədqiq edib, əhalinin həssas qruplarına göstəriləcək sosial xidmətlərin inkişaf meyillərini və gələcək prespektivlərinə dair yeni tövsiyyələr hazırlamaqdır.

Alınmış nəticələr: Dissertasiya işinin tədqiqi zamanı fərdi iş planına uyğun olaraq mövzu üzrə ədəbiyyatın toplanılması, aktuallığın əsaslandırılması, işlənmə dərəcəsinin öyrənilməsi, təhlil edilməsi və s. işlər görülmüşdür. Toplanılmış materialların təhlili, əldə olunmuş materialların ümumiləşdirilməsi, aparılan konkret sosial tədqiqatının nəticələrinin təhlil edilməsi, dissertasiyanın fəsillər üzrə tərtibi, istifadə olunan elmi ədəbiyyatın xülasəsinin yazılması kimi işlər yerinə yetirilmişdir. Dissertasiya üzrə alınmış nəticələr elmi məqalə və məruzələr Beynəlxalq və Respublika miqyasında və xarici elmi təşkilatların mətbuatında və jurnallarda çap olunmuşdur.

Elmi tədqiqat işi 5. Azərbaycanda Qaçqın və məcburi köçkünlərin problemlərinə dair sosial siyasət və sosial işin təşkili

Elmi tədqiqat işi üzrə çalışan əməkdaşlar: Tağıyeva Tərlan

Məcburi köçkünlərin uğurlu inteqrasiyası üçün onların sosial-demoqrafik, mənəvi imkanlarından istifadə etmək, bu sahədə sosial

siyasətin sosial və humanitar vəzifələrini daha aydın şəkildə həll etmək lazım idi. Bildiyiniz kimi, bu insanların yeni həyatını təşkil etmək üçün ilk növbədə qanunlar və qanunvericilik aktlarından ibarət baza hazırlanmışdır. Məcburi köçkünlərlə işləyərkən ixtisaslaşmaq, yeni zəruri funksional strukturları müəyyən etmək çox vacib idi. Dövlət məcburi köçkünlərin öz güclərini təklif edə bildiyi peşəkar sahənin inkişafı üçün çox səy göstərmişdir, ilk növbədə bu, əmək bazarı və əmək münasibətləri olmuşdur. İş ilk növbədə mövcud problemlərə yönəldilmişdi. Öz həllini Sosial təminat, ilk növbədə sosial xidmətin planlaşdırılması və təşkili istiqamətində işlər aparılıb. Məcburi köçkünlər müəyyən icmalar şəklində məskunlaşdıqları üçün iş ərazi prinsipinə uyğun təşkil olunub. Bundan başqa, təşkilatlanma işləri də müəyyən problemlər ətrafında aparılırdı. Bu, səhiyyə ilə, əlillərlə, uşaqlarla, psixoloji problemləri olan məcburi köçkünlərlə bağlı işlər olmuşdur. Könüllülük əsasında insanların yeni həyata uyğunlaşmasına kömək edən müxtəlif ictimai birliklər və təşkilatlar yaradılmışdı.

Aktuallığı: Miqrasiya cəmiyyətə həmişə xas olmuşdur. Çünki insanın başlıca həyati məqsədi fəaliyyət və sosial təcrübədir. Yalnız bu şəkildə hər birimiz ətrafımızdakı dünyaya hakim ola, onu fəth bilərik. Belə fəaliyyətin formalarından biri də müxtəlif səbəblərdən baş verə bilən mobillik, yəni bir ərazidən digər əraziyə köçməkdir. Müasir dünyada ən aktual mobillik məhz məcburi miqrasiyadır ki, bu da ən çox hərbi münaqişələrlə bağlıdır. Bu münaqişələr, öz növbəsində, dünyanın yenidən bölünməsi uğrunda mübarizənin nəticəsidir ki, hansı ki son nəticədə insanların həyatına və onların vəziyyətinə əsaslı şəkildə təsir göstərir.

Məqsədi: Bu tədqiqatın məqsədi müasir Azərbaycanda məcburi köçkünlərin sosial adaptasiyasının yüksək səviyyəsinə nail olmaq üçün həll edilməli olan sosial problemlərdir. Məqsəddən asılı olaraq, həllimiz üçün aşağıdakı vəzifələrlə qarşılaşırıq:

1. Müasir Azərbaycan şəraitində məcburi köçkünlərin sosial adaptasiyasının mahiyyətini müəyyən etmək;
2. Məcburi köçkünlər qrupunun formalaşması üçün regional şərtlər çərçivəsində məsələnin inkişaf tarixinə region ölkələri arasında münasibətlər əsasında sosial problem kimi təhlil etmək;

Alınmış nəticələr: Nəticədə qeyd etmək lazımdır ki, insanların yeni şəraitdə uğurla uyğunlaşmasına kömək edən çoxsaylı sosial texnologiyalar hazırlanıb həyata keçirilirdi. İlk aylarda məcburi köçkünlərin böyük axınını müvafiq iş formaları, maliyyə və sosial resursları ilə təmin etmək çox çətin idi. Yəni, unutmaq olmaz ki, məcburi köçkünlərlə yanaşı, əhalinin digər yoxsul təbəqələri, əlillər, uşaqlar da var idi. Yeni iqtisadi münasibətlərin inkişafı və dövlətin iqtisadi əsaslarının möhkəmlənməsi ilə bu istiqamətdə işlər getdikcə daha uğurlu olmuşdur.

Elmi tədqiqat işi 6. Küçə uşaqları sosial problem kimi

Elmi tədqiqat işi üzrə çalışan əməkdaşlar: Ramina Buqadinova

Uşaq və yetkinlik yaşına çatmayanların baxımsızlığı olduqca kəskin bir hadisədir və demək olar ki, hər bir cəmiyyəti müşayiət edir. Bu, böyüklərin, xüsusən də valideynlərin uşaqların davranışlarına nəzarət etməməsi nəticəsində yaranan mənfi sosial hadisədir. Ailələri ilə təmasda olan, lakin müxtəlif səbəblərdən (yoxsulluq, mənzildə sıxlıq, uşaqların istismarı, zorakılıq, laqeydlik, valideynlər, dostlar, müəllimlər ilə anlaşılmazlıq və s.) baxımsız qalan uşaqlar günün çox hissəsini, bəzən isə gecələrini də küçədə keçirməyə məcbur olurlar. Baxımsız uşaqlar sosial təhlükəli xəstəliklərin daşıyıcıları, hüquq pozuntularına və cinayətə meyilli şəxslər kimi xüsusi risk qrupuna daxildir.

Aktuallığı: Baxımsız və evsiz uşaqlar sosial işin aktual problemlərindən biridir. Uşaqlar cəmiyyətimizin ən zərif və həssas hissəsidir.

Onlar tamamilə böyüklərdən asılıdırlar – biz uşağın bioloji və fizioloji asılılığından; tərbiyəyə, təhsilə, maariflənməyə və inkişafa olan ehtiyacları müstəqil şəkildə təmin edə bilməməsi haqqında; uşağın hüquqi müdafiəyə, sosial nəzarətə olan ehtiyaclarının ödənilməsi zərurətindən danışırıq.

Məqsədi: Baxımsız və evsiz uşaqların və yeniyetmələrin əsas mənbəyinin müəyyənləşdirilməsi və qarşısının alınması.

Alınmış nəticələr: Uşaq baxımsızlığın səbəbi valideynlərin uşaq və yeniyetmələrin tərbiyəsi, saxlanması və təhsili ilə bağlı vəzifələrini yerinə yetirməməsi və ya lazımınca yerinə yetirməməsidir. Uşaq baxımsızlığı fenomeni uşaq və yeniyetmələr üçün normal həyat şəraitinin olmaması ilə müşayiət olunur. Baxımsızlığın səbəblərinin psixoloji, sosial-psixoloji və sosial-iqtisadi qrupları müəyyən edilir və səciyyələndirilir. Azərbaycan Dövlət Statistika Komitəsinin küçə uşaqları ilə bağlı apardığı statistik müayinənin nəticələrinin təhlili öyrənilib. Sorğuda iştirak edən uşaqların ailə vəziyyəti ilə bağlı məlumatların təhlili baxımsızlığın mənşəyinin ailədə olduğunu deməyə əsas verir. Valideynlərin və digər ailə üzvlərinin uşaqlara qarşı qəddar rəftarı, zorakılığı, kifayət qədər diqqət və qayğının göstərilməməsi uşaqların ailədən qaçmasına səbəb olur. Çətin maddi vəziyyət də yetkinlik yaşına çatmayanların erkən əmək fəaliyyətinə səbəb olur. Küçə uşaqları ailələrinə maddi yardım göstərmək üçün mümkün fiziki əməklə məşğul olur, həmçinin dilənçiliklə pul qazanırlar. Belə nəticəyə gəlinir ki, küçə uşaqlarında şəxsi, əqli və fiziki inkişafı pozulur, sağlamlıqları pisləşir, xəstəliklərlə yanaşı, həm də təhlükələrlə üzləşir, pis vərdişlər qazanır, mənfi sosial təcrübəyə yiyələnir, mütəşəkkil qruplara üzv olur, cinsi və əmək istismarı obyektinə çevrilirlər. Bütün bunlar sosial dezadaptasiya və desosializasiyaya gətirib çıxarır. Sosial dezadaptasiya geri dönə bilən bir prosesdir. Mütəxəssis böhran vəziyyətində olan ailəni nə qədər tez müəyyən edə bilsə, onunla işləmək bir o qədər effektiv olar. Müxtəlif kateqoriyalı uşaqların özünəməxsus ehtiyacları var ki, bu da öz problemlərinin həlli üçün müxtəlif yanaşmaların axtarışını tələb edir. Küçə uşaqları ilə sosial iş aşağıdakı sahələrdə aparılmalıdır: - uşağın meyllərinə və hobbilərinə əsaslanan fərdi-tipik yanaşma; - ailə ilə iş; - məktəblə iş. Sosial iş, dezadaptasiya prosesinin ilkin mərhələsində, uşağın küçənin mənfi mühitinə yeni daxil edildiyi zaman başlasa, daha təsirli olacaqdır.

Elmi tədqiqat işi 7. Ahılların ehtiyaclarının qiymətləndirilməsi aspektləri

Elmi tədqiqat işi üzrə çalışan əməkdaşlar: Aysel İsgəndərova

Azərbaycan Respublikasında rəsmi və qeyri-rəsmi qayğı sisteminin üzləşdiyi problemlər səbəbindən qarşılanmamış qayğı və dəstək ehtiyacları olan yaşlı insanların sayı əhəmiyyətli dərəcədə artır. Bu ödənilməmiş ehtiyacların qarşılanması ictimai səhiyyənin vacib prioritetlərindən birinə çevrilir. Bu ehtiyacların bəzilərini həll etmək üçün effektiv həllər hazırlamaq üçün ilk növbədə yaşlı insanların qayğı və dəstək ehtiyaclarını anlamaq vacibdir. 2050-ci ilə qədər dünya üzrə yaşlıların 80%-i aşağı və orta gəlirli ölkələrdə yaşayacaq. Demoqrafik dəyişiklik aşağı və orta gəlirli ölkələrə sosial və sağlamlıq sistemlərinin yaşlılar üçün hazır olmasını təmin etmək ehtiyacı yaranır.Ahıllar xroniki şəraitdə yaşamaq və üç əsas sahədə qayğı və dəstək tələb etdiyinə görə bir sıra fiziki, sosial və psixoloji problemlərlə üzləşirlər: 1) sosial fəaliyyətlər və münasibətlər; 2) psixoloji sağlamlıq; və 3) hərəkətlilik, özünə qulluq və məişət

| | |
|---|---|
| | həyatı ilə bağlı fəaliyyətlər. İcmal həmçinin vurğulanmışdır ki, bir çox yaşlı insanlar öz xəstəliklərinin öhdəsindən gəlmək və müstəqilliyini qorumaq istəklərini nümayiş etdirirlər, lakin ətraf mühit amilləri bu səylərə mane olur, o cümlədən: 1) özünə qulluq strategiyaları üzrə peşəkar məsləhətlərin olmaması; 2) zəif rabitə və xidmətlərin əlaqələndirilməsi; və 3) qayğı yolları kimi xidmətlər haqqında məlumatın olmaması.<br>Aktuallığı: Bu mövzu xüsusilə aşağı və orta gəlirli ölkələrdə yaşlıların sağlam qocalması üçün hansı əsas ehtiyacların yerinə yetirilməli olduğunu müəyyən etmək məqsədi daşıyır. Bu tədqiqat üçün istifadə edilən metod rəsmi hesabatların və statistikanın və elmi jurnalların ədəbiyyat icmalı idi. Birinci əsas ehtiyac maliyyə təhlükəsizliyidir. Pensiya sistemlərinin zəif olduğu ölkələrdə yaşlılar böyük ailələrdə yaşayırlar və büdcəni uşaqları ilə bölüşürlər. İkinci ehtiyac şəxsi təhlükəsizlik və icma təhlükəsizliyidir. Yaralanmalar, cinayətlər və fəlakətlər kimi məsələlər ön plana çıxır. Üçüncü ehtiyac psixi sağlamlıqdır. Dördüncü ehtiyac əlçatan səhiyyə xidmətidir. Son ehtiyac özünü həyata keçirməkdir.<br>Məqsədi: Dünya Əhalisinin Yaşlanmasına əsasən, yoxsullar üçün pensiya sistemlərinin zəif olduğu ölkələrdə yaşlılar adətən büdcəni uşaqları ilə bölüşən geniş ailələrdə yaşayırlar. Əksər ölkələrdə yaşlılar adətən digər yaş qruplarından daha yoxsuldurlar. Bir çox tədqiqat yaşlıların iqtisadi çətinliklərə səbəb ola biləcəyini iddia edir. Yaşlı yetkinlərin istehlakı digər əmək qabiliyyətli yaşlara nisbətən mütənasib olaraq yüksəkdir.Beləliklə, səhiyyə xərcləri əsasən özəldir, bu da maliyyə resurslarına tələblərin artmasına və qohumlardan borc almanın artmasına səbəb olur ki, bu da onların üzərinə daha geniş yük düşür.<br>Alınmış nəticələr: Aşağı və orta gəlirli ölkələrdə yaşlıların yerinə yetirilməli olan əsas ehtiyacları maliyyə təhlükəsizliyi, şəxsi təhlükəsizlik, psixi sağlamlıq, sağlamlıq sistemi və özünü həyata keçirmə qabiliyyətidir.<br>Bu nəticələrin aradan qaldırılması üçün təkliflər bunlardır: (a) aşağı və orta gəlirli ölkələrdə demoqrafik dəyişikliklər haqqında məlumatlılığın artırılması, (b) hökumətlər möhkəm pensiya və səhiyyə sistemləri təmin edir və (c) yaşlıların ailəsi onlara dəstək olur və onların cəlb olunmasına imkan verir. qərarların qəbulunda. |
| **2** | **Hesabat dövründə alınmış ən mühüm elmi nəticələr**<br>*Ən mühüm nəticələr səlis və konkret yazılmalıdır* |
| | 1.Ramina Buqadinova. Küçə uşaqlarında şəxsi, əqli və fiziki inkişafı pozulur, sağlamlıqları pisləşir, xəstəliklərlə yanaşı, həm də təhlükələrlə üzləşir, pis vərdişlər qazanır, mənfi sosial təcrübəyə yiyələnir, mütəşəkkil qruplara üzv olur, cinsi və əmək istismarı obyektinə çevrilirlər. |
| **3** | **Dərc olunmuş elmi işlərin xarakteristikası** |
| | **3.1. Mövzu üzrə Web of Science bazasına daxil olan Q1-Q4 kvartil reytinqinə düşən beynəlxalq jurnallarda çıxan məqalələr** *Müəlliflərin ad və soyadları, jurnalın adı tam şəkildə yazılmalı; Dərc olunmuş, qəbul olunmuş və ya çapa göndərilmişdir kimi göstərilməli; mənbənin **internetdəki linki göstərilməlidir*** |

| | | | | | |
|---|---|---|---|---|---|
| **Q1 üzrə:** | | | | | |
| | *Müəlliflərin ad və soyadları tam şəkildə yazılmalı* | *materialın adı* | *harda yayılıb* | *materialın dərc olunduğu, qəbul olunduğu və ya çapa göndərildiyi haqqında qeyd* | *mənbənin internetdəki linki, İD* |
| | Yoxdur | | | | |
| **Q2 üzrə:** | | | | | |
| | *Müəlliflərin ad və soyadları tam şəkildə yazılmalı* | *materialın adı* | *harda yayılıb* | *materialın dərc olunduğu, qəbul olunduğu və ya çapa göndərildiyi haqqında qeyd* | *mənbənin internetdəki linki, İD* |
| | Yoxdur | | | | |
| **Q 3 üzrə** | | | | | |
| | *Müəlliflərin ad və soyadları tam şəkildə yazılmalı* | *materialın adı* | *harda yayılıb* | *materialın dərc olunduğu, qəbul olunduğu və ya çapa göndərildiyi haqqında qeyd* | *mənbənin internetdəki linki, İD* |
| | Yoxdur | | | | |
| **Q 4 üzrə** | | | | | |
| | *Müəlliflərin ad və soyadları tam şəkildə yazılmalı* | *materialın adı* | *harda yayılıb* | *materialın dərc olunduğu, qəbul olunduğu və ya çapa göndərildiyi haqqında qeyd* | *mənbənin internetdəki linki, İD* |
| | Yoxdur | | | | |

**3.2. Mövzu üzrə Scopus, ERIH PLUS, Philosopher's Index, Copernicus, Ulakbim, PsycINFO və ya EconLit bazalarına daxil olan**

## jurnallarda çıxan məqalələr

| | *Müəlliflərin ad və soyadları tam şəkildə yazılmalı* | *materialın adı* | *harda yayılıb* | *materialın dərc olunduğu, qəbul olunduğu və ya çapa göndərildiyi haqqında qeyd* | *mənbənin internetdəki linki, İD* |
|---|---|---|---|---|---|
| | | | | | |

## 3.3. Mövzu üzrə digər (1-2-ci bənddən fərqli) beynəlxalq jurnallarda çıxan məqalələr

*Müəlliflərin ad və soyadları, məqalənin adı, jurnalın parametrləri tam şəkildə yazılmalı; Dərc olunmuş, qəbul olunmuş və ya çapa göndərilmişdir kimi göstərilməli; mənbənin internetdəki linki göstərilməlidir*

| | *Müəlliflərin ad və soyadları tam şəkildə yazılmalı* | *materialın adı* | *harda yayılıb* | *materialın dərc olunduğu, qəbul olunduğu və ya çapa göndərildiyi haqqında qeyd* | *mənbənin internetdəki linki, İD* |
|---|---|---|---|---|---|
